## Nadir Azayoğlu

### Bəsimdi

Səndən nə gözləyib, nə umasıydım,
Sən elə mənimçün haqsan, bəsimdi.
Bahar həvəsinlə payız ömrümə,
Bənövşə baxışı baxsan, bəsimdi.

Hər gün bir məclisdən min qat enən var,
Hər gün bir ünvandan geri dönən var,
Sənin sevdiyin var, səni sevən var,
Sənki gözü-könlü toxsan, bəsimdi.

Daş altda çiçək var ətrinə hayıf,
Oxunmaz, oxşanmaz xətrinə hayıf,
Şeirinin bir-iki sətrini sayıf,
Bir ətək qayğıdan çıxsan, bəsimdi.

Bir belə haqsızlıq bu şər içində,
*Nadir*in bir həsrət bişər içində,
Belə başıpozuq başər içində,
Bütövsən bəsimdi, sağsan bəsimdi.